2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 fevral 2025-ci il tarixli 33 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 6 fevral 2025-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 69 saylı Biləsuvar kənd seçki dairəsindən Nərimankənd bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Həsənov Hidayət Ədalət oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) daxil olmuş 5 fevral 2025-ci il tarixli 33 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü kimi tərəfimdən nəzərdən keçirilərkən onun aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilmişdir.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olduqda şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 69 saylı Biləsuvar kənd seçki dairəsindən Nərimankənd bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Həsənov Hidayət Ədalət oğlunun 2025-ci il 5 fevral tarixli 33 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov